

# Torpaq, Vətən

## Deyimlər

*Məhərrəm Şəmkirli*

Zaman-zaman hər yoldan ötənə duz-çörək verib içində torpaq istəyi yaratdıq.

***

Baxışım Arazı keçib Təbrizlə qucaqlaşır.

***

Cavanlığın səngərdə yaralı qaldı.

***

Adsız şəhid qardaşım, bir adsız daşdan adını soruşdum, hünərini nişan verdi.

***

Bu gün kənd həsrətim anasını itirmiş körpə quzu tək mər-mər mələdi.

***

Torpağı müqəddəs sayıb ağlına güvənsən torpağın heç vaxt düşmən tapdağında olmaz.

***

Vətənim məhəbbətim boyda, məhəbbətim Vətən boydadır mənim.

***

Göyün torpağa hər zaman yağış borcu var.

***

Dünya, mənə imkan ver bütövləşim. Onda məni yaxşı tanıyarsan.

***

Torpağa qanımızı tökdük ki, igidlər göyərsin.

***

Dedilər "Araz topuğundandır". Topuğumdan olan Arazdan bir dəfə Güneyə keçə bilmədim.

***

Sözdə Vətənim olan, işdə Vətənim olmayan torpaqlarım hey!

***

Torpağın azadlığı mənim azadlığımdır.

***

Sinəm göynəyir əsir yurd üçün.

***

İşğalda qoyduğumuz torpaqlar bizdən soyuyub, bizə qucaq açmayacaq.

***

Aramızda sərhəd olan çayın adı şair Məmmədə düşdü.

***

Dünya məni yaman qorxudur. Deyəsən dərdi sağalmazdır.

***

Haqqa daş atıb, nahaqqın başına sığal çəkən dünya.

***

Azərbaycan vətəndaşı, əbədiyyət vətəndaşı Məmməd Araz.

***

Dünya sirrini vermədi. Mən dünyanın nəyiyəm ki?

***

"Segahım" Qarabağ harayında itdi.

***

Altında zəfəri yatan torpağın, üstündə unutqanlığı gəzir.

***

Ney səsində səpələndim Azərbaycana.

***

Vətən qara daşınam dim-dik keşiyində dayanmışam.

***

Ömür dünyamın sonuyla üz-üzəyəm. Sakit baxışla bir-birimizə baxıb sağollaşıb, halallaşırıq.

***

Dünya, mən səndə əbədiliyimi qoyub gedirəm.

***

Hər güllə səsi, top səsi müharibə iştirakçısının ömrünə atılar.

***

İndi canının hayında olan adamlar yox, ölkələr var.

***

Əsrlikdə qalan ağacların baharı, yazı olmaz. Elə payız ömürlərini yaşayarlar.

***

Həmişə torpaqlarımızı işğal ediblər. Biz də işğal olunmuş torpaqlarımızı güc yolu ilə geri qaytarsaq dünya dağılmaz ki?!

***

İsa Muğanna "İdel" romanı ilə Azərbaycanı köklü-köməcli özünə qaytarıb dedi: "Sən böyük və fərqli millətsən".

***

Tarixi unutmayın, müharibələrdə qələbələr sərkərdə və əskərlərin çoxluğu ilə yox, ağlın gücüylə qazanılır.

***

Dedim, səndən torpaq ətri gəlir. Dedin, mən torpaq oğluyam, torpaqdan doğulmuşam.

***

Atım kişnədi, qurdum uladı. Ulu yurdum, gözün aydın!

***

24 ilin 24 qışında bir dəfə qış yuxusuna getmədi işğalda olan torpağım, gözü yolda, qulağı səsdə oldu.

***

Vətən daşı təkcə divara hörülmək, küçəyə döşənmək üçün deyil. O, həm də cilalanıb qorunmaq üçündür.

***

Vətən haqqında deyilmiş yanlış bir söz belə Vətənə xəyanətdir.

***

Torpaq sənin, mənim olduğuna görə belə şirindi - yiyəli olduğuna görə.

***

Vətən müqəddəsdir, müqəddəslik azadlıqdan, qardaşlıqdan, sevgidən yaranır. Bunlarsız müqəddəslik yoxdur, bunlarsız Vətən də yoxdur.

***

Torpaq uğurunda ölməkdən qorxdum, torpaq ayağımın altından qaçdı.

***

And içirəm, ayaqyalın, başaçıq getdiyim Vətən yollarına!

***

Şeirimizin bəndi köçkün, qafiyəsi qaçqın.

***

Hər zaman yükümüzü çəkən torpağın yükünü çəkə bilmədik.

***

Arzularım məndən qaba kənəndə getdi, mən də onun dalınca.

***

Bu yurdda torpaqsızlığa boyun əyən oğul doğulmayıb hələ.

***

Tənha ağacın yaxasından tutan külək onu sağa, sola əyir, amma kökü dərindədir deyə yıxa bilmir.

***

Yurd yerinə doğru yüyürəm, külək arxamca çata bilmir.

***

İçməyi hünər bilənlərin Qarabağı almağa hünərləri yoxdur.

***

Mey qədri bilənlər Vətən qədri bilməzlər.

***

Yerə, göyə iddialı olanlar sonda torpağın olublar.

***

Ümidi yüklədiniz belimə, "daşı" dediniz. Bir ömür də ümid adlı yük daşıyarlar?!

***

Dayanıb Arazın sahilində o tayı səslədim: "Ehey, o tayım, eşidirsənmi məni?"

***

Ermənistan Azərbaycan arasında qocalan ATƏT-in həmsədrləri - zamanə həqiqətinin portretləri.

***

Yaşını gizlədib Vətən müdafiəsinə gedən uşaqlar, indi hardasınız?

***

Şair gözüylə baxılan, şair ürəyi ilə sevilən torpaq heç vaxt düşmən əsarətində qalmaz.

***

Mən qara xəbərləri bol olan illərin uşağıyam.

***

Bütöv torpaqlı olmaq mənim ölümsüzlüyümdür.

***

At ilində də atlanmasaq, bizim atlanmağımız qiyamətə qaldı.

***

Payız gəldi torpağın qəbul vaxtı başladı.

***

Varın, sərvətin, yaşarlığın - qan yaddaşın.

***

Ölkələr var, bir günə yaranan problemini yüz ilə çözə bilmir. Allah bizi bundan saxlasın.

***

Vətən haray çəkirsə, demək vətəndaşı yuxudadır.

***

Düşmən qanımızı tökən yerə biz su tökdük. Qazanan o oldu, itirən biz.

***

Sənə gedən dolanbac yollarının başına dolam-dolam dolanım, a kəndim!

***

Kəndimizə getmişdim. Doqqazımızın başında ayaqyalın, başı açıq uşaqlığım yüyürdü qarşıma. Qol-boyun olduq. Mən elə kövrəldim, elə kövrəldim...

***

İllərlə görmədiyim bulağın qarşısında əyildim və diz qoyub üzündən öpdüm. Bulağa gələn qızlar bunu görüb gülüşdülər.

***

Yurdsuzluğumu yaşaya-yaşaya qərib bir ömür sürürəm. Mən dəmirəmmi, daşammı Allah? Dəmir pas atar, daş mamır bağlayar. Mən nə pas ata bilirəm, nə mamır bağlaya.